UOT 165.12

**Fəxrəddin Quliyev**
**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi**
**texnika elmləri namizədi, dosent,**
**E-mail: Fakhraddin.Kuliev@mail.ru**

# FOLKLOR FƏLSƏFİ TƏDQİQAT OBYEKTİ KİMİ

**Xülasə:** Məqalədə Azərbaycan xalq poeziyasının mifdən ayrıldığı dövrdən başlayaraq təşəkkül qanunauyğunluqları tədqiq edilir və milli fəlsəfəsi düşüncənin formalaşmasında onun əhəmiyyətli rolu əsaslandırılır.

Mifin ümumiləşdirmə, fraktallıq, aksioloji aspektin prioriteti, sinkretizm kimi əsas atributları şifahi xalq poeziyasında özünəməxsus inkişaf xüsusiyyətləri əldə edir.

Gerçəkliyin bütöv dərki üçün xalq poeziyasındakı ümumiləşdirmələr gündəlik həyat hadisələri zəminində adi şüur, sağlım düşüncə və xalq hikməti kateqoriyaları vasitəsilə həyata keçirilir. Başqa sözlə, xalq poeziyası milli varlığı əsas aspektləri ilə ifadə edir.

Şifahi xalq poeziyası sadəlövh sinkretizmdən başlayaraq qeyri-xətti sinergetik sistem səviyyəsinə qədər mürəkkəb inkişaf yolu keçmişdir. Bu səbəbdən kainatda mövcud olan fraktallıq, gerçəkliyin dərkinə yönəlmiş poetik düşüncədə və düşüncənin poetik ifadəsi kimi xalq poeziyasının bütün şeir formalarında özünü aşkar şəkildə təcəssüm etdirir.

Milli fəlsəfi düşüncənin zəruri tərkib hissəsi kimi dini mənsubiyyət ozan aşıqların yaradıcılığında aparıcı motivlərdən biridir. Təbiət, cəmiyyət və insan həyatının mənası haqqında fikirlərinin arqumentləşdirilməsi üçün ozan aşıqlarımız müntəzəm şəkildə müqəddəs Quran ayələrinə istinad etmişlər.

**Məqsəd:** Xalq poeziyasının genezisi, inkişafı, milli fəlsəfi düşüncə tarixində rolunun araşdırılması.

**Metodologiya**: Tədqiqatın metodoloji əsasları kimi tarixi-məntiqi metodlardan istifadə edilmişdir.

**Elmi yenilik**: Xalq poeziyası təşəkkül və inkişaf prinsipləri əsasında tədqiq edilmişdir.

**Açar sözlər**: xalq poeziyası, milli varlıq, dini dünyagörüşü, fəlsəfi ümumiləşdirmə, adi şüur, sağlam düşüncə, xalq hikməti, qeyri-xəttilik.

## Giriş

Sivilizasiyanın mürəkkəb və qeyri-xətti, alternativli inkişaf istiqamətləri, beynəlxalq münasibətlərin çoxşaxəli inkişaf dinamikası müstəqilliyini əldə etmiş xalqların qarşısında öz keçmişinə qayıdış, əcdadlardan qalan milli-mənəvi irsin qorunub saxlanması və müasir elmi metodologiyalarla tədqiqi kimi məsuliyyətli və ciddi problemlər qoyur.

Yaşadığımız qloballaşma dövründə obyektiv olaraq insanların ənənəvi həyat və düşüncə tərzi dəyişir, movcud dəyərlərə münasibətdə ənənəviliklə yenilik arasındakı ziddiyyətlərlə qarşılaşırıq. Milli mədəniyyət məhz bu ziddiyyətlərin dialektikası əsasında inkişaf edir. Milli mədəniyyətin inkişafı ilə bağlı bir çox problemlərin həlli isə məhz milli mədəni irsin özündədir.

Milli mədəniyyət xalqın əsrlər boyu yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi sərvətidir, onun bütövlüyünün atributudur. Milli mədəniyyətin nüvəsi şifahi xalq poeziyası, folklordur.

Folklor bəşər bədii- fəlsəfi mədəniyyətinin, milli-bədii ənənələrin əsası, milli özünüdərkin ifadəçisidir, dünya binası və insan cəmiyyəti haqqında ümumiləşdirilmiş təsəvvürləri şifahi obrazlarda verir, konkret tarixi dövrdə yaranmış ictimai münasibətlər sistemində insanın daxili dünyasını əks etdirir. Milli özünüdərk və milli mədəniyyətin formalaşmasındakı əhəmiyyətli rolu folklora fəlsəfi tədqiqat obyekti kimi yanaşmağa əsas verir.

Tədqiqat folklorun, məxsusi olaraq xalq poeziyasının genezisi, inkişafı, milli fəlsəfi düşüncə tarixinində rolunun araşdırılmasına həsr edilmişdir.

Tədqiqatın metodoloji əsasları kimi tarixi-məntiqi metodlardan istifadə edilmişdir.

Tarixi metod tarixi faktlara əsaslanaraq inkişafda olan obyektin mənşəyini və təsadüfi faktorları da nəzərə almaqla, onun inkişaf prosesinin mərhələlərini bütün detalları ilə müəyyən etməyə imkan verir.

Məntiqi metod obyektin ümumi və əsas atrubutlarını ayıraraq onun obyektiv qanunauyğunluqlarını tarixi inkişafın ən yüksək mərhələlərində tədqiq edir. İnkişafda olan mürəkkəb obyektlər inkişafın yüksək mərhələlərində özünün keçmiş struktur və funksionallıq xüsusiyyətlərini təkrar edir.

Tarixi-məntiqi metod vasitəsi ilə tədqiq olunan obyektin tarixi inkişafının ümumiləşdirilmiş mənzərəsini yenidən canlandırmaq mümkündür.

Folklor ilk növbədə xalqın milli varlığını ifadə edir. Milli varlıq çoxaspektli kateqoriya kimi xalqın həyat və fəaliyyəti formasında mövcudiyyətidir. Milli varlığın əsas elementi xalqın bir çox nəsillərinin əsrlər boyu yaratdığı maddi və mənəvi sərvəti- onun milli mədəniyyətidir. Milli varlıq xalqın özünəməxsus maddi və mənəvi yaradıcılıq abidələrində, onun milli mədəniyyətində - dünyagörüşündə, milli dəyərlər sistemi əsasında formalaşmış həyat tərzi, idrak, etik və

estetik baxışlarında  ifadə olunur.

Bu mənbələr arasında şifahi xalq yaradıcılığını xüsusi qeyd etmək lazımdır. Belə ki, şifahi xalq yaradıcılığı, folklor milli fəlsəfənin əsas qaynaqlarından biridir, milli fəlsəfə isə milli mədəniyyətin mahiyyətini, onun əsas məzmununu təşkil edir. Başqa sözlə, şifahi xalq poeziyası ilk növbədə ana dilini, xalqın milli özünüdərkini, fəlsəfi düşüncə mədəniyyətini formalaşdırır.

**Mifik düşüncə**

Şifahi xalq ədəbiyyatı öz mənbəyini mifologiyadan götürür. Mifologiya ictimai inkişafın ilkin mərhələsində insanların dünya haqqında ümumi məlumatlar sistemidir. Mif, insan şüurunda ətraf dünyanın hissi-obrazlı inikas vasitəsi kimi çıxış edir, öz daşıyıcıları üçün obyektiv olaraq qəbul edilir, dünyanın mənşəyi və strukturu, insanla bağlı bir sıra məlumatlar, əfsanələr, normalar, ayinlər, inanclar toplusunu əhatə edir."Mif – xüsusi dünya duyumu, təbiət və ictimai həyatın özünəməxsus obrazlı, hissi, sinkretik təsəvvürü, ictimai şüurun ən qədim formasıdır, mif şüurun əsas elementidir" [1, s. 45-46], "mif çox vaxt insanların dünya qavramının universal bir vasitəsi kimi qiymətləndirilir" [2, s. 259].

Mif insan cəmiyyətinin həyatında mühüm tərbiyəvi rol oynayır, insanın xeyir və şər, ədalət, sevgi, xoşbəxtlik, gözəllik, tanrı, həyat, ölüm və s. kimi əsas mənəvi dəyərlərə münasibətini formalaşdırır. Mif yalnız bir şeyin ifadəsi deyil, həm də onun ifadə və təyin etdiyi, canlandırdığı predmetin özüdür, "Mif xalqın taleyi, onun özünəməxsus ilkin yaşayış formasıdır" [3, 17-18]. Mifdə hər bir şey sakraldır, buradan da onları ifadə edən sözün sakrallığı yaranır. Sakrallıq sözün təsir güçünü artırır, onun nominativ xassələrini, ontologiyasını əsaslandırmağa imkan verir. Mifoloji şüur üçün əsas xarakterik xüsusiyyət şərh olunan fakt və həqiqətlərə inamdır: izah olunan hadisələr şəxsiyyətləşdirilir, eyni zamanda müəyyən dərəcədə ümumiləşdirilir.

Mif kollektiv şüur formasıdır, kollektivin təşkilatlanmasını təşviq edir, onun sosial və psixoloji monolitliyinin qorunmasına kömək edir, bunun üçün "... müəyyən bir sosial qrupun bütün üzvlərinə xas olan xüsusiyyətlər nəsildən-nəslə ötürülür, fərdlərə qəbul etdirilir, yəni, öz obyektlərinə münasibətdə içlərində vəziyyətə uyğun olaraq hörmət, qorxu, pərəstiş və s. hisslər oyadılır"[4, s.9].

Kollektiv şüurun məhsulu olaraq mifdə kollektiv hiss və fikirlər üstünlük təşkil edir. İnsanın bütün həyatı kollektivin fəaliyyət ritminə, həyat tərzi və düşüncəsinə tabe olur. İcmanın üzvü kollektiv təşkilatın bütövlüyünü qorumaq ehtiyacını daim hiss edir.

Ümumi və təkin oxşarlığı prinsipinə görə mifdə fraktallığın əlamətlərini göstərmək olar: bir fərd toplumu təmsil və xarakterizə edir. Əgər hər bir fenomen bölünməz bir mikroaləm kimi qəbul edilirsə, onda onun bir elementi ilə ona təsir etmək mümkündür.

Məlumdur ki, məntiqəqədərki təfəkkür kimi mifik təfəkkürdə obyektlə subyektin, tamla hissəciyin, ümumiylə xüsusinin, maddiylə idealın, təbii ilə fövqəltəbiinin eyniliyi üstünlük təşkil edir. Bu eynilik fərqlilik prinsipi ilə deyil, oxşarlıq prinsipi əsasında aparılır. Yəni, ibtidai insan özünü hələ ətraf mühitdən ayırmır, bütün həyatı boyu təbiətlə sıx əlaqədə olması nəticəsində özü ilə təbiət arasındakı vəhdəti özünün hiss və münasibətlərini təbiət obyektlərinə köçürməklə ifadə edir.

Levi-Bryul məntiqəqədərki düşüncənin bu xüsusiyyətinə diqqəti cəlb edərək göstərir ki, müasir baxışlarda sintez öz tərkib hissələri arasında məntiqi əməliyyatlar vasitəsilə yaradıldığı və konseptual xarakter daşıdığı halda, məntiqəqədərki sintez bundan fərqli olaraq, ilk növbədə, ... öz tərkib hissələrinə ayrılmamış və ayrılması mümkün olmayan tam kimi qəbul edilir”[4, s.89]. Bu definisiyada sintez öz mahiyyəti etibarı ilə sinkretizm anlayışına daha yaxındır.

Mifik düşüncələr öz ifadə formalarını metaforik dildə, poeziyada tapır. Xalqların dünya baxışlarındakı sərbəstlik gündəlik təcrübə çərçivəsindən kənara çıxaraq öz ilkin ümumiləşdirilməsini əldə edir.

Mif haqqında qısa xülasəni aşağıda qeyd edilənlərlə yekunlaşdırmaq olar:

- Mif insan şüurunun adi, gündəlik həyat tərzində yaranmış təbəqəsidir, kollektiv şüurun məhsuludur. Mifik şüurda sinkretizm, sistemlilik, ibtidai formada sintezə meyl və dünyanın bütöv dərkinin üstünlük təşkil etməsi ilə yanaşı, “hər şeyin hər şeydə olması”, yəni, fraktallığın ilkin əlamətləri aydın görünür.

- Mif müasir insan təfəkkürünün zəruri, immanent elementidir. Mifin strukturundakı təkrarlar, çoxlaylılıq, irrasionallıq, sinkretiklik insan şüurunun atributiv xassəsi kimi təfəkkür proseslərində bu və ya digər formalarda özünü göstərir.

Qədim insanın həyatında baş verən dəyşikliklər onu zaman-zaman yeni problemlə üz-üzə qoyur, onun düşüncə tərzində oxşarlıqdan fərqlərə meyl formalaşmağa başlayır. Tədricən insan özünü canlı və cansız predmetlərdən fərqləndirir, adları obyekt və proseslərdən ayırır, nəticədə onun xarici dünyaya münasibəti dəyişir, ətrafında baş verən hadisələrə daha real münasibət bəsləyir. Bu dövrlərdən başlayaraq insanda özünüdərk prosesi gedir və şifahi xalq yaradıcılığının mifdən ayrılıb müstəqil inkişafı da məhz bu dövrlərə təsadüf edir.

“Mifoloji təməl sonrakı, “klassik” eposda izlənilə bilər. Ədəbiyyatın mifologiya ilə əlaqəsinin nağıl və qəhrəmanlıq eposu vasitəsilə olduğu ortaya çıxır”[5, s. 581].

Şifahi xalq yaradıcılığında mifdən keçən atributları iki qrupa ayırmaq olar:

1. Dünyagörüşləri sistemi, aksioloji yönüm, irrasionallıq kimi nəzəri əhəmiyyət kəsb edən xassələri, belə ki, mifologiya ibtidai insanların gerçəklik, ətraf dünya haqqında düşüncələr sistemi və ibtidai cəmiyyətin mənəvi dəyərlərinin ensiklopediyası kimi qəbul edilir.

2. Mifin strukturundakı sintezin analiz üzərində üstünlüyü, sinkretizm, fraktallıq, çoxlaylılıq, ierarxiklik.

Bu atributlar, fikrimizcə, şifahi xalq poeziyasının tədqiqat istiqamətlərini müəyyən edir.

**Xalq poeziyası**

Bəs şifahi xalq poeziyası mahiyyətcə nədən ibarətdir?

Poeziya hər bir xalqın ilk danışıq dilidir. “Şeir üslubu o xalqda və o dövrdə öz həyatiliyini qazanır ki, dil hələ formalaşmayıb və yalnız poeziyanın sayəsində öz həqiqi inkişafını tapır. ... Şair sanki xalqın dilini açan ilk insandır ki, təsəvvürlər dildə öz ifadəsini tapsın və dil vasitəsilə təsəvvürlərə yiyələnək”[6, 390-391].

Bu məntiqə uyğun olaraq idrak məsələlərində incəsənətin prioritetini Şellinq belə ifadə edir: “…İncəsənət elmin proobrazıdır (elm üçün örnəkdir), incəsənətin artıq nail olduğuna elm hələ gəlib çatmalıdır”[7, s.481].

Varlığa ilk dəfə poeziya əsərlərində ad verilmiş, varlığın ilkin idrak forması şeir dili ilə ifadə edilmişdir. Poeziya, incəsənətin əsas növlərindən biri kimi zaman-zaman elmi ideyaların yaranmasına yaradıcılıq impulsları vermiş, insanın mənəviyyat dünyası da özünün ilk təsvir və təhlilini poeziyada tapmışdır.

Nəsillərdən miras qalan poetik ümumiləşdirmələri, düşüncə, qavrama, ümumən yaradıcılıq alqoritmlərini mövcud elmi konsepsiyalara transformasiya etməklə xalq poeziyasındakı idrak məsələlərini daha dərindən şərh etmək olar. Qeyd edək ki, bu poetik ümumiləşdirmələr adi şüur, sağlam düşüncə və xalq hikməti kateqoriyaları üzərində qurulur. Bununla yanaşı, şifahi xalq poeziyasının fəlsəfi konsepsiyalarla tədqiqində idrak, etik, estetik aspektlərin birgə, kompleks şəkildə araşdırılmasını və aksioloji aspektin ətrafında birləşdirilməsini daha məqsədəuyğun hesab edirik.

**Adi şüur**

Elmi biliklərin ilkin formaları öz başlanğıcını adi şüurdan götürür. Gerçəkliklə bilavasitə əlaqə adi şüurun əsas xüsusiyyətidir. Adi şüurun strukturunda rasionalla irrasionalın, məntiqi ilə intuisiyanın vəhdəti, onun heterogenliyi və qeyri-xəttiliyinin əsas amilləridir.

İnsanların ətraf dünyaya münasibəti ilk növbədə onların həyat təcrübəsi əsasında formalaşmış və bu prosesdə adi şüur mühüm rol oynamışdır. Yəni, adi şüur bizi əhatə edən dünyanın bilavasitə qavranılması əsasında formalaşdırılır və, əsasən, yalnız ictimai həyatın hadisələriylə bağlıdır. Adi şüurda bütün insan təbiəti əks olunur.

Adi şüur çox mürəkkəb, çoxlaylı, zidiyyətli bir fenomendir, adəti qavrayışlardan, yaşantılardan, təsəvvürlərdən, anlayışlardan yaranır ki, bunlar da qismən kortəbii şəkildə ortaya çıxır, qismən də tərbiyənin, təhsilin, şəxsi təcrübənin təsiri altında baş verir [8, s.119]. Bu ziddiyyətlərin arxasında gündəlik rasional, prakti-

ki düşüncə ilə birbaşa, intuitiv, irrasional düşüncənin vəhdəti durur. Aşağıda bu məsələni ayrıca nəzərdən keçirəcəyik.

Adi şüur ictimai şüur formasıdır, etnik stereotiplərlə əlaqəlidir. Gündəlik şüurun ictimai şüurla fərdi şüur, dünyanın mifoloji və elmi inikası, şüurdan kənarla refleksiv şüur arasında mediator funksiyasını daşıdığını söyləyə bilərik[9, s.91].

Adi şüur, mənəvi həyatın çoxqatlı hadisəsi kimi mürəkkəb heterogen struktura malikdir, ən müxtəlif empirik biliklərdən başlayaraq fəlsəfə, incəsənət, xalq təbabətinə qədər sahələri ehtiva edir.

**Sağlam düşüncə**

Sağlam düşüncə əksliklərin vəhdətindən yaranır, rasional və irrasional, məntiqi təfəkkür və hissi, eyni zamanda intuitiv inam, anadangəlmə instiktiv fəhm, qabiliyyət də  sağlam büşüncənin elementləridir.

Sağlam düşüncə çıxarılan əqli nəticələrin doğru olub-olmadığını yoxlamaq üçün kriteri, "ölçü vahidi", məntiqi vasitədir, qanundur. Sağlam düşüncə insanların ətraf gerçəkliyə və özlərinə gündəlik praktikada və əsas əxlaqi prinsiplərdə istifadə olunan baxışlarıdır. "Sağlam insan ağlı konkretə yönəlir... fəlsəfə mücərrədçiliklə düşməndir və bizi əksinə, konkretə aparır [10 s..89], sağlam ağıl bilavasitə bilir ki, nə düzgündür və nə yaxşıdır"[11, s.226].

Sağlam düşüncə həyat təcrübəsi və intuisiya sayəsində insanların davranış və düşüncələrinə həqiqilik və ədalət hissləri aşılayır. Bu səbəbdən sağlam düşüncə əsaslı bilik sayılmır, bilikdə əsas olanla ikinci dərəcəli olanları və onların sərhədlərini müəyyənləşdirir. Başqa sözlə, praktiki bilik növü kimi, insanlar öz praktik fəaliyyətlərində sağlam düşüncənin prinsiplərinə üstünlük verirlər.

Elmi metodlara məxsus paradoksallıq sağlam düşüncə üçün xarakterik deyil. Buna baxmayaraq sağlam düşüncə universaldır, insanlar adi məişət məsələlərindən başlayaraq mürəkkəb problemlər haqqında düşünərkən ilk olaraq sağlam düşüncəyə müraciət edirlər.

Sağlam düşüncə intuitivlik, bilavasitəlilik hesabına "hər şeyin hər şeydə olması" prinsipinə uyğun bir sistem kimi işləyir, qeyri-xəttidir və konstruktları isə aşkar intuitiv həqiqətlərdir[12, s.44]. Deməli, sağlam düşüncə üçün qeyri-xəttilik və fraktallıq xasdır.

Sağlam düşüncə gündəlik motivləri, insanların adi və gündəlik təcrübələrində rəhbərlik etdiyi motivləri xarakterizə edir. Sağlam düşüncə özünü folklorda, insanların bədii əsərləri qiymətləndirmələrində və çox vaxt estetikada bədii zövqlərini müəyyənləşdirərək müəyyən dərəcədə özünü sənət və ədəbiyyat sahəsində hiss etdirir.

Adi sağlam düşüncənin tətbiq sahəsi məişət məsələlərindən tutmuş ən mürəkkəb ictimai məsələləri əhatə edir. İctimai varlığın təsiri şüurun bütün səviy-

yələrinə bu prizmadan keçir. Sağlam düşüncə insanların qarşılaşdığı problemlərin həllində istifadə etdiyi ilk kriteridir. Biz cəmiyyət və insanla bağlı problemlər barədə düşünərkən ilk mühakimələrimizi sağlam düşüncə prinsipləri üzərində qururuq. Çünki, sağlam düşüncənin intuitiv həqiqəti hər bir təcrübəni qabaqlayir.

**Xalq hikməti**

Adi şüurun və sağlam düşüncənin qanunauyğunluqları əsasında xalq hikməti yaranır və inkişaf edir. Xalq hikməti gerçəkliyin dərkində özünəməxsus qnoseoloji imkanlara malikdir. Xalq hikmətində ümumiləşdirmələr insanların çox tərəfli fəaliyyətlərində uzun və çox ciddi bir sınaqdan keçmiş bir prinsip, qayda və inanclar çərçivəsində aparılır. Gerçəkliyin dərki prosesində böyük əksəriyyət tərəfindən qəbul edilir.

Xalq hikməti bir çox nəsillər tərəfindən yaradılmış milli mənəvi dəyərlərin toplanması, nəsildən-nəsilə ötürülməsi və maddi və mənəvi təcrübənin mövcud sosial mühitdə yaradıcı şəkildə istifadəsi proseslərindəki ziddiyyətlərin dialektikasını əks etdirir.

Xalq hikməti həyat təcrübəsinin ötürülməsi vasitəsi qismində çıxış edərək artıq mənəvi mədəniyyətin inkişafının ən erkən mərhələlərində baş verir və cəmiyyətdə insan əməllərinin mənəvi tərəfi ilə əlaqəli məsələlərin nəzəri araşdırmalarını qabaqlayır.

Xalq hikməti insanların mənəvi-praktik fəaliyyətinin ən əhəmiyyətli nəticələrinin milli mədəniyyətin təməl elementlərindən biri kimi şair və filosofların yaradıcılığı üçün mənbə rolunu oynayır.

Bunu biz poetik refleksiyanın timsalında görə bilərik. Poetik refleksiya şairlərin poeziya haqqında düşüncələrinin təhlilinə yönəlmiş düşüncədir, şifahi xalq poeziyasında bir çox ozan aşıqların yaradıcılıq və poetik düşüncələrinin təhlilinə yönəlmiş düşüncə formasında özünü göstərir. Bununla yanaşı, poetik refleksiya xalq poeziyasında milli dünyagörüşünün xüsusiyyətləri və onun daha adekvat poetik ifadəsi üçün yeni şeir formalarının yaradılması forması kimi ifadə olunur. Beləliklə, poetik refleksiya, nüvəsini şifahi xalq poeziyasının təşkil etdiyi milli mədəniyyətin inkişafını tədqiq etməyə imkan verir.

Xalq poeziyasında poetik refleksiya bir çox ozan aşıq nəsillərinin poeziyanın mahiyyəti, onun nəzəri və praktiki aspektləri, poetik yaradıcılıq prinsipləri haqqında düşüncələri sistemindən ibarətdir.

Tufarqanlı Abbas və Qurbanidən başlayaraq ustad sənətkarlarımız poeziya və şair haqqında nəzəri əhəmiyyət kəsb edən qiymətli fikirlər söyləmişlər [13, s.48-49].

**Rasionallıq və irrasionallıq**

Xalq poeziyasında ümumiləşdirmə vasitələrindən biri də mifoloji təfəkkürdən keçən irrasionallıqdır.

Rasional və irrasional prinsiplər fəlsəfənin epistemoloji problemləri ilə bağlıdır. Rasional və irrasional prinsiplər arasındakı dialektik əlaqələr dünyagörüşlərin mahiyyətini təyin edir,

Rasionallıq səmərəlilik, məntiqilikdir. Zaman dəyişdikcə rasionallığa olan tələblər sərtləşdirildiyinə görə rasionallığın sərhədləri genişləndirilir və irrasionallığa keçid zərurəti yaranır. Belə ki, yalnız rasional məntiqlə obyektiv gerçəkliyin dərki mümkün deyil.

İrrasional, bir fəlsəfi anlayış kimi ağılın hüdudlarından kənar, məntiqi idraka tabe olmayan gerçəklik sahəsini xarakterizə edir, digər tərəfdən gizli bilik formaları kimi qiymətləndirilir. Gizli biliklər isə, məlumdur ki, avtomatizm, bacarıq, vərdiş, intuisiyanın sayəsində formalaşır. Ümumiyyətlə, "irrasionalizm, bu ədalətli həqiqətin ifadəsindən, bu daha mürəkkəb qanunların ümumilikdə rasional olaraq anlaşılmaz olduğu və müəyyənləşdirilib sabitləşə bilmədikləri ifadəsinə keçdiyi yerdən başlayır" [14, s.58].

İrrasional prinsiplər həyatın bütün sahələrinə nüfuz edir, insanın etik və estetik dünyagörüşlərinin formalaşmasının zəruri elementlərini təşkil edir. İrrasionalizmin konstruktiv rolu gerçəkliyin irrasional mahiyyətini təsdiqləyir. Dünyanın bütöv dərki üçün irrasional amillərin nəzərə alınması vacibdir. İrrasional prinsiplər, eyni zamanda, insan həyatının emosional və psixoloji sferasını əhatə etməklə yanaşı, mədəniyyətin formalaşmasında, cəmiyyətin etik və estetik tərbiyəsində mühüm rol oynayır.

İnsanın yaradıcılıq prosesində rasional və irrasional elementlərin yeri və rolu haqqında Hegel yazır:"... rasional dediklərimiz əslində ağıl aləminə aiddir və irrasional dediklərimiz isə daha çox ağıllılığın başlanğıcı və izidir ... "[15, s. 416-417].

Poeziya irrasionaldır, insanların gerçəklik haqqında düşüncələri, qarşılaşdığı hadisələrlə bağlı keçirdiyi hiss və həyəcanları, yaşantıları, poeziyada metaforik bir dildə ifadə olunur.

Xalq poeziyasında hələ XVI əsrdən başlayaraq yaradılmaş cığalı təcnis irrasionalın gizli bilik növü fikrini təsdiqləyir. Cığalı təcnis qeyri-xətti sintezin nümunəsidir. Belə ki, struktur baxımından cığalı təcnis iki müstəqil şeir formasının, bayatı-təcnis və təcnisin sintezidir. Bəllidir ki, istər təcnis, istərsə də bayatı-təcnis qeyri-xəttidir. Hər iki şeir forması cinas sistemi ətrafında birləşdirilir [16, s.35]. Cinas sistemi bifurkasiya nöqtələridir. Cığalı təcnisin timsalında göstərmək olar ki, qeyri-xətti sintez bir elmi konsepsiya kimi işlənib hazırlanmasından əsrlərlə öncə Azərbaycan xalq poeziyasında istifadə olunurdu.

Xalq poeziyasının gerçəkliyi inikas adekvatlığını yoxlamaq üçün sis- tem-struktur metodologiyası daha geniş tətbiq olunur. Sistem-struktur metodologiyasının tətbiqi nəticəsində kainat, baş beyin və təcnisin strukturları arasında izomorfluq aşkar edilmişdir[17, s.111-112]. Belə ki, bu strukturların formalaşması mərkəz və onun ətrafı prinsipi üzrə baş verir, ona görə də böyüyün kiçikdə təkrarı, yəni fraktallıq hər üç struktur üçün xasdır. Obyektlə onun inikası arasındakı struktur izomorfluğu inikasın adekvatlığı üçün zəruri və kafi şərtlərdən biridir.

Xalq poeziyasının aparıcı motivlərindən biri də dini mənsubiyyətdir. Dini baxışlar öz təbiəti etibarilə irrasionaldır.

Dini dünyagörüşü dünyanın irrasional prinsiplər vasitəsi ilə dərki sayəsində formalaşır və elmi dünyagörüşünə alternativdir və onu tamamlayır. Belə ki, rasionallıq və irrasionallıq elmi-fəlsəfi baxışlara müvafiq olaraq bilik və inamla ifadə edilir.

Artıq məlumdur ki, irrasional düşüncə güclü bir irəliləyiş mühərriki və ya sənət əsərlərinin yaradılmasına köməkçi ola bilər.

İ. Kant idrak prosesində inamı rəy və biliklə birlikdə üç zəruri elementin biri kimi qəbul edir. Əgər hökmün həqiqiliyinin tanınması subyekt tərəfindən kafi əsasa malikdirsə, eyni zamanda obyektiv əsasa malik deyilsə bu inam(iman) adlanır [18, s.604].

İnamın aksioloji rolu, başqa sözlə, elm və incəsənət sahəsində yaradıcılığın dəyər yönümü cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edir. Bizdə nəyəsə inam yaranırsa, bu sonradan əqidəyə, imana çevrilir. İman irrasional mənşəlidir, qeyd edildiyi kimi, məntiqi təfəkkürə tabe deyil.

İnam idrak prosesinin katalizatoru, onun sürətləndiricisidir.

Öz növbəsində, V. Lektorski inancın epistemoloji əhəmiyyətini "empirik asılılıqlar, müxtəlif növ eksperimental nəticələr"dən ibarət olduğu qənaətindədir [19, s.58].

İndiki dövrdə rasionallıqla yanaşı elmi, mifik, dini, əxlaqi, mənəvi fenomenlər dünyanın bütöv dərkinə yönəlmiş elmi-nəzəri biliklərin zəruri tərkib hissələridir. Rasional və irrasional, məntiqi və mistik biliklərin sintezi elm və incəsənət sahəsində qazanılan nailiyyətlərin əsas mənbəyidir.

Azərbaycan xalq poeziyasında irrasionallıq el şairlərinin gözəl və gözəllik haqqında şeirllərində özünü daha qabarıq şəkildə göstərir. Gözəllik kateqoriyasına münasibət xalq poeziyasında gözəlliyin ilahiləşdirilməsi formasında təcəssüm olunur. Gözəlliyin ilahiləşdirilməsində ilk növbədə Quran ayələrindən, ümumən İslam dünyagörüşündən istifadə olunur.

Azərbaycan xalq poeziyasının qnoseoloji problemlərindən biri onun təşəkkülü prosesinin tədqiqidir. Xalq poeziyasının əsrlərlə davam edən təşəkkül prosesləri özünün ümumi qanunauyğunluqlarını formalaşdırmışdır. Türk xalq poezi-

yasının genezisi sadədən mürəkkəbə prinsipinə əsaslanır. Ən çox yayılmış şeir forması bayatı türk xalq poeziyasının nüvəsini təşkil edir, qalan şeir formaları bayatının üzərində qurulmuşdur. Çoxəsrlik genezisi nəticəsində xalq poeziyasının öz optimal formasını alması Kolmoqorovun qnoseoloji prinsipinə cavab verir [16, s.37].

Tədqiqatın nəticələri qismində aşağıdakıları qeyd etməyi məqsədəuyğun hesab edirik:

1. Gerçəkliyə poetik-mənəvi münasibət insanın dünyagörüşünü formalaşdıran ilk faktorlardan biridir, poeziya maddi və mənəvi dünyaya münasibətin ilk ifadə formasıdır.

2. Şifahi xalq poeziyası varlığın ilk idrak formalarından biri kimi milli fəlsəfi düşüncə mədəniyyətinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Şifahi xalq poeziyasında xalqın dünyagörüşü, ictimai özünüdərki, həyat tərzi, adət-ənənələri, insan, cəmiyyət və təbiət haqqında düşüncələri, dəyər yönümlü fikirləri öz bədii-fəlsəfi əksini tapır.

3. Nəsillərin yaratdığı poetik ümumiləşdirmələr, mücərrəd sxemlər, düşüncə, qavrama, ümumən yaradıcılıq alqoritmləri folklor mətnləri əsasında yenidən canlandırmaq və onları zamanın mövcud konsepsiyalarına transformasiya etmək üçün milli metodoloji vasitələr kompleksidir.

4. Xalq poeziyası adaptiv labildir və özünüinkişaf etdirən sistem olaraq yenilikləri mənimsəməyə qadirdir, gerçəklikdə baş verən dəyişikliklərə milli münasibətin poetik ifadəsini verir, insanların konsolidasiyasını təmin edən dəyər yönümlü funksiyaları yerinə yetirir.

## İstifadə olunan ədəbiyyat


1. Кессиди Ф. От мифа к логосу: Становление греческой философии СПб.: Алетейя, 2003. - 360 с.
2. Гуревич П.С. Религиоведение. - М. - Воронеж: МПСИ, 2005. - 694 с.
3. КассирерЭ.Философиясимволическихформ.Том2.Мифологическое мышление. М.; СПб. Университетская книга, 2002. - 280 с.
4. Леви-Брюль Л. Сверхъестественное в первобытном мышлении. М.: Педагогика-Пресс, 1994. - 608 с.
5. Мелетинский Е. М. Мифология // Новая философская энциклопедия: в 4 т. Т. II – М.: Мысль, 2001. – с. 581-583.
6. Гегель Г., Эстетика, в четырех томах, том третий, М.: Искусство, 1971, - 622 с.
7. Шеллинг, Сочинения в 2-х томах, том 1, М.: Мысль, 1987, - 637 с.
8. Ойзерман Т.И., Философия и обыденное сознание, Вопросы философии, 1967, № 4, - с. 119-130.

9. Улыбина Е.В. Психология обыденного сознания. – М.: Смысл, 2001. - 263 с.

10. Гегель Г. Лекции по истории философии. Кн.1., СПб.: Наука, 1993. -350 с.

11. Гегель Г. Система наук. Часть 1. Феноменология духа. СПб: Наука, 1999. - 444с.

12. Мигуренко Р.А., Здравый смысл как предмет философской рефлексии, Вестник Томского государственного университета. 2013. № 370. - с. 38–45.

13. Кулиев Ф.А. О поэтической рефлексии в народной поэзии Азербайджана, The European Journal of Humanities and Social Sciences, Vienne, 2018, №5, pp. 45-51.

14. Ильенков Э. В. Диалектика абстрактного и конкретного в научно-теоретическом мышлении. М.: РОССПЭН, 1997. - 464 с.

15. Гегель Г. Энциклопедия философских наук. В 3-х т. Т. 1. Наука логики. М., 1974. - 452 с.

16. Quliyev F., Türk xalq poeziyasında optimallıq prinsipləri haqqında, Metafizika, №2, Bakı: 2019, - s. 25-40.

17. Quliyev F., Türk xalq şeiri strukturunun planetarlığı haqqında, Metafizika, №1, Bakı: 2018, - s. 102-115.

18. Кант И. Критика чистого разума, М.:Наука, 1999, - 655 с.

19. Лекторский В. А. Эпистемология классическая и неклассическая. 2006. М.: УРСС. 2001. - 256с.

**Фахраддин Кулиев**

## ФОЛЬКЛОР КАК ОБЪЕКТ ФИЛОСОФСКОГО ИССЛЕДОВАНИЯ

**Резюме:** В статье исследованы закономерности становления Азербайджанской народной поэзии со времен её разделения от мифа до настоящего времени и обозначено её значение в формировании национального философского мышления.

Такие основные атрибуты мифа, как обобщение, фрактальность, приоритет аксиологического аспекта, синкретизм получают своеобразное развитие в народной поэзии.

Обобшения, направленные на целостное познание действительности, имеющиеся в народной поэзии, проводятся с помощью категорий обыденного мышления, здорового смысла и народной мудрости на основе повседневной жизненной практики. Иными словами, народная поэзия выражает национальное бытие в его основных аспектах.

Устная народная поэзия прошла сложный путь развития от наивного синкретизма до нелинейной синергетической системы. В силу этого, фрактальность универсума, ярко проявляет себя в поэтическом мышлении, как одном из древних методов познания действительности и во всех стихотворных формах народной поэзии, как способа выражения поэтических мыслей.

Религиозная принадлежность, как необходимый элемент национального философского мышления является одним из ведущих мотивов творчества озанов ашугов. Они для убедительности своих мыслей о природе, обществе и смысле человеческой жизни регулярно использовали аяты священного Корана.

**Цель.** Исследование генезиса, развития народной поэзии, и её роли в истории национального философского мышления.

**Методология.** Использованы историко-логические методы.

**Научная новизна**: Народная поэзия исследована на основе принципов становления и развития.

**Ключеыe слова:** народная поэзия, национальное бытие, религиозное мировоззрение, философское обобшение, обыденное сознание, здравый смысл, народная мудрость, нелинейность.

**Fakhraddin Quliyev**

## FOLKLORE AS AN OBJECT OF PHİLOSOPHİCAL RESEARCH

**Summary:** The article examines the regularities of the formation of Azerbaijani folk poetry from the time of its separation from myth to the present time and outlines its significance in the formation of national philosophical thinking.

The main attributes of the myth, such as generalization, fractality, the priority of the axiological aspect, syncretism, receive a kind of development in folk poetry.

Generalizations aimed at a holistic knowledge of reality, available in folk poetry, are carried out using the categories of everyday thinking, healthy meaning and folk wisdom on the basis of daily life practice. In other words, folk poetry expresses national life in its main aspects.

Oral folk poetry has gone through a difficult path of development from naive syncretism to a nonlinear synergetic system. Because of this, the fractality of the universe clearly manifests itself in poetic thinking, as one of the ancient methods of cognizing reality and in all poetic forms of folk poetry, as ways of expressing poetic thoughts.

Religious affiliation, as a necessary element of national philosophical thinking, is one of the leading motives for the creativity of ozans ashugs. They regularly used the verses of the Holy Quran to convince their thoughts about thenature, society and the meaning of human life.

**Target.** Study of the genesis, development of folk poetry, its role in the history of national philosophical thinking.

**Methodology**. Historical and logical methods were used.

**Scientific novelty**: Folk poetry is studied by the principles of formationand development.

**Key words:** folk poetry, national life, religious worldview, philosophicalgeneralization, everyday consciousness, common sense, folk wisdom, nonlinearity.